# Azərbaycan-Türkiyə müttəfiqliyi regionda sülhə təminat verir

**Mənəvi tellərlə bir-birinə bağlı olan türk xalqları və dövlətlərinin qloballaşan dünyada birlik nümayiş etdirmələri olduqca vacibdir. Bu, dünyada cərəyan edən proseslərə təsir göstərə bilmək, milli maraqları müdafiə etmək baxımından mühüm amildir. Türk dövlətləri ilə əlaqələrində məhz bu mövqedən çıxış edən və bu prinsiplərə sadiq qalan Azərbaycan ortaq dəyərlərin bəxş etdiyi imkanların türk xalqlarının ümumi mənafeyinə səfərbər olunmasına, münasibətlərin etibarlı təməllər üzərində inkişaf etdirilməsinə böyük töhfələr verir.**

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan-Türkiyə əlaqələrinin dünyada analoqu yoxdur. Bu gün dünyaya nümunə olan Azərbaycan-Türkiyə münasibətləri ən yüksək zirvədədir. Əsrlər boyu iki ölkə arasında sarsılmaz dostluq və qardaşlıq münasibətləri mövcud olub. Hər iki xalq istər xoş günlərdə, istərsə də çətin, ağır vaxtlarda birlik nümayiş etdirib, bir-birinin sevincini, kədərini bölüşüb, uğurlarına sevinib, qürur hissi keçirib.

Azərbaycan və Türkiyə xalqlarının bir-birinə yaxınlığı bütün sahələrdə özünü göstərir. Böyük tarixi olan bu əlaqələr, dövlət başçılarının qardaşlıq münasibətləri ölkələrimizin inkişafına əvəzsiz töhfələr verir.

Dünyada elə iki dövlət tanımaq olmaz ki, onlar arasındakı dostluq Türkiyə və Azərbaycan arasında olan dostluq və qardaşlıq qədər saf, səmimi və etibarlı olsun. Bu qardaşlıq əsrlər boyu sınaqlardan çıxıb. Çanaqqala döyüşündə xalqlarımızın çiyin-çiyinə döyüşməsi, Qafqaz İslam Ordusunun Azərbaycanı işğaldan azad etmək üçün ölkəmizə gəlməsi buna əyani sübutdur. İkinci Qarabağ savaşı isə bu qardaşlıq münasibətlərini bir daha təsdiq etdi.

Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Xalqlarımızın eyni soykökə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması bu iki ölkəni həmişə bir-birinə doğma edib. Ulu öndər Heydər Əliyevin bir millət, iki dövlət olaraq xarakterizə etdiyi Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir.

İki ölkə arasındakı həmrəylik, birlik bu gün ən yüksək həddə çatıb. Bizi birləşdirən təkcə dövlətlərimizin maraqları deyil, həm də sadiqlik, etibar və qarşılıqlı dəstəkdir. 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Türkiyənin mənəvi, diplomatik və siyasi dəstəyini hər zaman hiss etmişdir. Müharibə dövründə Türkiyə mediası bizim haqq səsimizi və haqlı savaşımızı dünya ictimaiyyətinə geniş şəkildə çatdırdı. Türkiyə regionda sülhün, təhlükəsizliyin və dinc, yanaşı yaşama prinsiplərinin bərqərar olması üçün bütün imkanlarını ortaya qoyaraq qətiyyətli səylər göstərir.

Mayın 14-də Türkiyədə Rize-Artvin Hava Limanının təntənəli açılış mərasimindəki çıxışında Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Bu gün sizinlə bərabər olmaq mənim üçün böyük xoşbəxtlikdir. Bu gün bu gözəl mərasimdə Azərbaycan Prezidentinin iştirakı Türkiyə-Azərbaycan birliyinin növbəti təzahürüdür. Biz hər zaman bir yerdəyik - xoş günlərdə, yaxşı günlərdə, çətin günlərdə də və İkinci Qarabağ savaşı bunu bir daha bütün dünyaya göstərdi. Savaşın ilk saatlarından son gününə qədər mənim qardaşım bizim yanımızda idi, qardaş Türkiyə xalqı bizim yanımızda idi. İkinci Qarabağ savaşı bizim müştərək, ortaq şanlı tariximizdir".

Türkiyə Azərbaycanın əzəli, əbədi ərazisi olan Qarabağın işğal altında olduğu 30 illik bir zaman ərzində də Azərbaycanın haqlı, ədalətli mövqeyini daim müdafiə etmişdir. Türk xalqı Qarabağ dərdini öz dərdi bilmiş, bu problemin, münaqişənin aradan qaldırılması üçün bütün siyasi, mənəvi dəstəyini göstərmişdir. Beynəlxalq kürsülərdən bu məsələyə qəti münasibətini ifadə edərək, münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmasını nüfuzlu qurumların diqqətinə bir daha çatdırmışdır.

Qardaş ölkə Azərbaycanın sadəcə siyasi və hərbi deyil, eyni zamanda, ticarət, iqtisadiyyat, mədəniyyət və digər bütün sahələrdə ən etibarlı tərəfdaşıdır. Müasir dünyada illərin sınağından çıxmış Azərbaycan-Türkiyə münasibətlərinin daha da inkişaf etdirilməsi hər iki ölkənin xarici siyasətinin prioritetinə çevrilmişdir. Dövlət və hökumət başçılarının, eləcə də siyasi, iqtisadi, elm, təhsil, mədəniyyət və digər sahələrdə qarşılıqlı əlaqələrin genişləndirilməsi strateji tərəfdaşlıq amilini daha da gücləndirmişdir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan demişdir: "Azərbaycan bizim üçün sadəcə dövlətlərdən bir dövlət, azərbaycanlı qardaşlarımız da millətlərdən bir millət deyil. Biz eyni dili danışan, eyni inanca mənsub, ortaq bir tarixi keçmişi olan, sözdə deyil, əməldə qardaş, bir millət, iki dövlətik".

Azərbaycan və Türkiyə dövlətləri arasında həmrəylik, dostluq, qarşılıqlı yardım münasibətləri dünya ölkələrinə nümunə olacaq dərəcədə inkişaf etmişdir. İki ölkə arasında münasibətlərin inkişafı ümumilikdə türk dünyasının daha sıx şəkildə bir araya gəlməsinə öz töhfəsini verir. Ümumilikdə, Azərbaycan-Türkiyə münasibətlərinin inkişafı təkcə region üçün deyil, dünyada münaqişə zonası olan bölgələr üçün də sülhə nail olmağa nümunədir. Münaqişə zonasında hərbi əməliyyatlar bitsə də, bölgədə sülhün təmin olunmasında sülhməramlı qüvvələrin tərkibində rus hərbçiləri ilə yanaşı, türk əsgərlərinin iştirakı bir daha Azərbaycana göstərilən mənəvi və siyasi dəstəyin təzahürüdür.

Türkiyə işğaldan azad edilən ərazilərimizin bərpası işində də Azərbaycanın yanındadır. Ermənilər həmin əraziləri tamamilə məhv edib. Türkiyənin ölkəmizin işğaldan azad olunmuş ərazilərində aparılan bərpa-quruculuq işlərində yaxından iştirak etməsi qardaşlıq nümunəsidir. Tarixin çətin sınaqları ilə üz-üzə qaldıqda, bu iki ölkə arasındakı qardaşlıq sözdə deyil, əməldə özünü göstərir. Türkiyə tərəfi dəfələrlə bildirib ki, Azərbaycan tək deyil, onun ərazi bütövlüyünün bərpası istiqamətində bütün siyasi və hərbi qərarlarını dəstəkləyir. Eyni zamanda Azərbaycan da Türkiyəyə qarşı eyni münasibəti sərgiləyir.

Əzəli və əbədi olan Azərbaycan-Türkiyə münasibətləri, türk və Azərbaycan xalqları arasındakı qardaşlıq bundan sonra daha da inkişaf edərək regionda sülhün qorunması və möhkəmləndirilməsi ilə yanaşı, region ölkələrinin iqtisadi cəhətdən inkişafına şərait yaradacaq. Bu münasibətlərin isə əsasında hər iki ölkə liderinin uzaqgörən siyasəti, qardaşlıq və dostluq münasibətləri dayanır.

**Müşfiq MİRZƏ,
"Respublika".**

Respublika.- 2022.- 5 iyul.- S.9.